İPƏK YOLU, No.1, 2024, səh.72-83
https://doi.org/10.30546/1810-911X.2024.1.72

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARI ÜZRƏ ƏHALİNİN PUL GƏLİRLƏRİ VƏ İSTEHLAK XƏRCLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Aytəkin Məmmədova**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: aytakin_mammadova@unec.edu.az

**Xülasə**. Məqalədə əhali gəlirlərinin şəhər və kənd üzrə differensasiyası təhlil edilmiş, iqtisadi rayonlar və Bakı şəhəri inzibati ərazi vahidi üzrə muzdlu işçilərin orta aylıq nominal əmək haqqı müqayisə olunmuş, həmçinin iqtisadi rayonlar üzrə əhalinin gəlir mənbələri və istehlak xərclərinin tərkibi araşdırılmışdır.

**Açar sözlər:** İqtisadi rayonlar, gəlirlər, xərclər, nominal əmək haqqı, Covid-19 pandemiyası.

**ASSESSMENT OF MONETARY INCOME AND CONSUMPTION EXPENDITURE OF THE POPULATION BY REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN**

**Aytakin Mammadova**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract**. In the paper the differentiation of population incomes by city and village is analyzed, the average monthly nominal salary of workers by economic regions and the administrative territorial unit of Baku city is compared and the composition of income sources and consumption expenses of the population by economic regions is investigated.
**Keywords**: Economic regions, income, expenditure, nominal wage, Covid-19 pandemic.

**ОЦЕНКА ДЕНЕЖНЫХ ДОХОДОВ И ПОТРЕБИТЕЛЬСКИХ РАСХОДОВ НАСЕЛЕНИЯ ПО РЕГИОНАМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**Айтекин Мамедова**
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** В статье анализирована дифференциация доходов населения по городам и селам, сравнивается среднемесячная номинальная заработная плата наемных работников по экономическим районам и административно-территориальной единице города Баку, а также исследованы источники доходов и состав потребительских расходов населения по экономическим районам.
**Ключевые слова:** Экономические регионы, доходы, расходы, номинальная заработная плата, пандемия Covid-19.

## 1. Giriş

Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik rayonlarının işğalı ilə bağlı siyasi problemlər və Ermənistanın düşmənçilik münasibətlərindən əhali uzun müddət əziyyət çəkmişdir. Bu hal işğaldan və müharibədən əziyyət çəkən, yaşadıqları ərazilərdən və öz evlərindən köç edən, əmlakını və güzəranını itirmiş insanlara ciddi şəkildə həm iqtisadi, həm də psixoloji təsir göstərmişdir. Onlar ölkənin müxtəlif bölgələrinə köçərək məskunlaşmışlar. Dövlət uzun müdddət ərzində bir milyona yaxın məcburi köçkünə mənzil, iş, təhsil və pensiya kimi bir sıra sosial müdafiə tədbirlərini təmin etməklə kömək etsə də, bu status iqtisadiyyat üçün əhəmiyyətli yük yaratmışdır.

## 2. Əhali gəlirlərinin diferensasiyası

Ölkə üzrə əhalinin gəlirlərinin şəhər və kənd üzrə differensasiyasına diqqət yetirsək, 2020-ci ildə əhalinin gəlirlərinin şəhərlərdə daha yüksək olduğunu müşahidə etmək olar. Əsas səbəb isə şəhər yerlərində əhalinin sayının çox olması, muzdlu işlə bağlı gəlirlərin əldə edilməsinin daha asan, mülkiyyətdən gələn gəlirlərin daha yüksək olması ilə bağlıdır. Lakin 15 illik bir dövrün təhlili bizə fərqli nəticənin olduğunu göstərir.

**Cədvəl 1.** Ayda adambaşına düşən əhali gəlirləri, manatla

| | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2020/2005 |
|---|---|---|---|---|---|---|
| Gəlirlər-cəmi | | | | | | |
| Ölkə üzrə | 64,4 | 144,2 | 240,5 | 292,6 | 291,4 | 4,5 |
| Şəhər yerləri üzrə | 68,0 | 149,4 | 249,4 | 303,2 | 301,4 | 4,4 |
| Kənd yerləri üzrə | 60,3 | 138,1 | 230,4 | 280,8 | 280,1 | 4,6 |
| O cümlədən: | | | | | | |
| Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər | | | | | | |
| Ölkə üzrə | 19,4 | 50,0 | 78,2 | 99,3 | 104,1 | 5,4 |
| Şəhər yerləri üzrə | 28,7 | 67,3 | 102,7 | 125,8 | 132,2 | 4,6 |
| Kənd yerləri üzrə | 8,9 | 29,6 | 50,3 | 69,6 | 72,5 | 8,1 |
| Özünüməşğulluqdan gəlirlər | | | | | | |
| Ölkə üzrə | 27,1 | 56,4 | 96,0 | 107,1 | 98,0 | 3,6 |
| Şəhər yerləri üzrə | 20,9 | 45,4 | 77,7 | 85,5 | 74,8 | 3,6 |
| Kənd yerləri üzrə | 34,0 | 69,4 | 116,9 | 131,3 | 124,0 | 3,6 |
| Ondan k/t-ı məhsullarının istehsalından alınan gəlirlər | | | | | | |
| Ölkə üzrə | 12,0 | 20,1 | 32,1 | 36,4 | 34,6 | 2,9 |
| Şəhər yerləri üzrə | 2,6 | 4,5 | 6,7 | 8,2 | 6,8 | 2,6 |
| Kənd yerləri üzrə | 22,6 | 38,6 | 61,0 | 67,9 | 65,7 | 2,9 |
| Mülkiyyətdən gəlirlər- cəmi | | | | | | |
| Ölkə üzrə | 1,1 | 1,6 | 2,2 | 2,5 | 1,7 | 1,5 |
| Şəhər yerləri üzrə | 1,5 | 2,1 | 2,9 | 3,3 | 2,1 | 1,4 |
| Kənd yerləri üzrə | 0,8 | 1,1 | 1,5 | 1,6 | 1,2 | 1,5 |
| Ondan əmlakın icarəyə verilməsindən gəlirlər | | | | | | |
| Ölkə üzrə | 0,9 | 1,3 | 1,7 | 1,9 | 1,2 | 1,3 |
| Şəhər yerləri üzrə | 1,2 | 1,7 | 2,2 | 2,5 | 1,5 | 1,3 |
| Kənd yerləri üzrə | 0,6 | 0,9 | 1,2 | 1,3 | 0,9 | 1,5 |
| Alınmış cari transfetlər | | | | | | |
| Ölkə üzrə | 7,5 | 21,8 | 38,0 | 49,3 | 57,8 | 7,7 |
| Şəhər yerləri üzrə | 7,4 | 20,9 | 38,4 | 51,4 | 60,4 | 8,2 |
| Kənd yerləri üzrə | 7,6 | 23,0 | 37,6 | 47,0 | 54,9 | 7,2 |
| Pensiyalar | | | | | | |
| Ölkə üzrə | 6,1 | 17,9 | 32,2 | 41,4 | 48,3 | 7,9 |
| Şəhər yerləri üzrə | 6,2 | 17,4 | 33,7 | 45,6 | 53,2 | 8,6 |
| Kənd yerləri üzrə | 6,0 | 18,4 | 30,4 | 36,6 | 42,9 | 7,2 |
| Müavinət və sosial yardımlar | | | | | | |
| Ölkə üzrə | 0,8 | 2,6 | 3,8 | 7,5 | 9,2 | 11,5 |
| Şəhər yerləri üzrə | 0,7 | 2,4 | 3,1 | 5,4 | 6,9 | 9,9 |
| Kənd yerləri üzrə | 0,9 | 2,9 | 4,7 | 9,9 | 11,7 | 13,0 |
| Natura şəklində daxilolmaların pul ifadəsində dəyəri | | | | | | |
| Ölkə üzrə | 0,6 | 1,3 | 2,0 | 0,4 | 0,3 | 0,5 |
| Şəhər yerləri üzrə | 0,5 | 1,1 | 1,6 | 0,4 | 0,3 | 0,6 |
| Kənd yerləri üzrə | 0,6 | 1,7 | 2,5 | 0,5 | 0,3 | 0,5 |
| Digər gəlirlər | | | | | | |
| Ölkə üzrə | 9,3 | 14,4 | 26,1 | 34,4 | 29,8 | 3,2 |
| Şəhər yerləri üzrə | 9,5 | 13,7 | 27,7 | 37,2 | 31,9 | 3,4 |
| Kənd yerləri üzrə | 9,0 | 15,0 | 24,1 | 31,3 | 27,5 | 3,1 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ölkə daxilində digər ailələrdən alınan vəsaitlər | | | | | | |
| Ölkə üzrə | 7,2 | 10,5 | 19,7 | 27,1 | 24,0 | 3,3 |
| Şəhər yerləri üzrə | 6,9 | 9,8 | 21,6 | 30,3 | 26,5 | 3,8 |
| Kənd yerləri üzrə | 7,4 | 11,2 | 17,5 | 23,5 | 21,4 | 2,9 |
| Ölkə xaricindən alınan vəsaitlər | | | | | | |
| Ölkə üzrə | 2,1 | 3,9 | 6,4 | 7,3 | 5,8 | 2,8 |
| Şəhər yerləri üzrə | 2,5 | 3,9 | 6,1 | 6,9 | 5,4 | 2,2 |
| Kənd yerləri üzrə | 1,6 | 3,8 | 6,6 | 7,8 | 6,1 | 3,8 |

**Mənbə:** [2]

Təhlil göstərir ki, 2020-ci ildə 2005-ci ilə nisbətən ölkə üzrə gəlirlər 4,5 dəfə artdığı halda, şəhər yerləri üzrə gəlirlər 4,4 dəfə, amma kənd yerləri üzrə 4,6 dəfə artmışdır. Yəni 15 ildə kənd yerlərində əhalinin gəlirləri daha çox artmışdır. Muzdlu işlə əlaqədar gəlirlərin artımı şəhər yerində 4,6 dəfə olduğu halda, kənd yerləri üzrə bu 8,1 dəfə olmuşdur. 2019-cu illə müqayisədə gəlirlərin həcmi pandemiya səbəbindən azalsa da, muzdlu işlə əlaqədar gəlirlər artmışdır. Pandemiya ilə əlaqədar pensiya, müavinət və sosial yardımlarda xüsusi artım müşahidə edilmişdir. Mənfi hal kimi kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlə özünüməşğulluqdan əldə edilən gəlirlərin 2019-cu ilə nisbətən 2020-ci ildə azalmasının olmasıdır.

## 3. Əhalinin əsas gəlir mənbələri

Qərbdə mütəxəssislər ölkədə orta əmək haqqına əsasən, əhalinin gəlir səviyyəsini müəyyən edir və bu məbləğin 60%-dən azını qazanan adam kasıb sayılır. Azərbaycanda dövlətin apardığı uğurlu siyasət nəticəsində orta əmək haqqı xeyli artıb, “2004-2018-ci illər ərzində orta aylıq əmək haqqı 7 dəfə, orta aylıq pensiyalar 9,4 dəfə artmış, yoxsulluğun səviyyəsi 2004-cü ildəki 44,7 faizdən 2018-ci ildə 5,1 faizə düşmüşdür” [5].




| | Bakı şəhəri - cəmi | Naxçıvan Muxtar Respublikası - cəmi | Abşeron-Xızı iqtisadi rayonu - cəmi | Dağlıq Şirvan iqtisadi rayonu - cəmi | Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi | Qarabağ iqtisadi rayonu - cəmi | Qazax-Tovuz iqtisadi rayonu - cəmi | Quba-Xaçmaz iqtisadi rayonu - cəmi | Lənkəran-Astara iqtisadi rayonu - cəmi | Mərkəzi Aran iqtisadi rayonu-cəmi | Mil-Muğan iqtisadi rayonu - cəmi | Şəki-Zaqatala iqtisadi rayonu - cəmi | Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi | Şirvan-Salyan iqtisadi rayonu - cəmi | Azərbaycan Respublikası |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2015 | 666,8 | 399,7 | 360,9 | 269,8 | 298,1 | 242,0 | 281,1 | 303,5 | 276,2 | 259,4 | 275,7 | 255,4 | 258,3 | 316,9 | 466,9 |
| 2019 | 868,8 | 484,2 | 503,0 | 396,0 | 423,6 | 344,9 | 390,3 | 414,3 | 379,1 | 373,0 | 373,1 | 361,1 | 414,1 | 456,5 | 635,1 |
| 2020 | 927,8 | 535,0 | 582,9 | 461,4 | 506,2 | 409,9 | 475,3 | 498,3 | 447,3 | 439,8 | 443,1 | 429,8 | 500,3 | 518,3 | 707,7 |
| 2010 | 474,8 | 304,7 | 246,0 | 209,3 | 210,2 | 187,1 | 217,0 | 231,6 | 218,1 | 204,5 | 220,1 | 195,2 | 223,8 | 237,8 | 331,5 |

**Qrafik 1.** İqtisadi rayonlar və Bakı şəhəri inzibati ərazi vahidi üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı, manatla

**Mənbə:** [4]

Ümumiyyətlə, orta aylıq nominal əməkhaqqı 2010-cu ildə 331,5 manatdan 2020-ci ildə 707,7 manata qədər yüksəlib. Lakin 2015-ci ildə manatın devalvasiyasına qədər ölkədə orta nominal əmək haqqı 566 ABŞ dolları olduğu halda, 2020-ci ildə bu 416 ABŞ dolları olub. İqtisadi rayonlar üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2010-cu ilə nisbətən 2020-ci ildə ölkə üzrə 2,14 dəfə artmış, ən yüksək artım Gəncə-Daşkəsəndə 2,41 dəfə, Abşeron-Xızıda 2,37 dəfə, ən aşağı artım isə Naxçıvan MR-da 1,76 dəfə artaraq fərqli artım müşahidə olunmuşdur.

Respublikamızın ayrı-ayrı regionları üzrə əhali gəlirlərinin əsas mənbələrini nəzərdən keçirək:




| | Naxçıvan MR | Abşeron | Gəncə-Qazax | Şəki-Zaqatala | Lənkəran | Quba-Xaçmaz | Aran | Yuxarı Qarabağ | Dağlıq Şirvan | Kəlbəcər-Laçın | Bakı şəhəri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər | 47,9 | 51,4 | 30 | 27,6 | 25 | 30,2 | 23,9 | 32,7 | 32 | 37,7 | 49,7 |
| Özünüməşğulluqdan gəlirlər | 33,7 | 23,2 | 36,2 | 42,9 | 45,6 | 42,4 | 44,6 | 29,7 | 46,6 | 20,4 | 18,4 |
| ondan kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər | 17,7 | 2,2 | 17,2 | 20,3 | 21 | 17,3 | 17,3 | 11,1 | 17,4 | 0,9 | 0,1 |
| Mülkiyyətdən gəlirlər – cəmi | 0,4 | 0,4 | 0,3 | 0,4 | 0,5 | 0,4 | 0,3 | 0,1 | 0,5 | 0,5 | 1,2 |
| ondan əmlakın icarəyə verilməsindən gəlirlər | 0,3 | 0,3 | 0,3 | 0,3 | 0,4 | 0,2 | 0,2 | 0 | 0,2 | 0,3 | 0,9 |
| Alınmış cari transfertlər | 13,4 | 18 | 19,6 | 17,8 | 18,6 | 17,3 | 19,7 | 29,5 | 16 | 37,7 | 19,8 |
| pensiyalar | 12,7 | 16,8 | 17,2 | 14,4 | 16,8 | 15,7 | 17,1 | 15 | 15,2 | 16 | 17,9 |
| müavinət və sosial yardımlar | 0,7 | 1,2 | 2,2 | 3,4 | 1,8 | 1,6 | 2,5 | 14,2 | 0,8 | 21,3 | 1,7 |
| natura şəklində daxilolmaların pul ifadəsində dəyəri | 0 | 0 | 0,2 | 0 | 0 | 0 | 0,1 | 0,3 | 0 | 0,4 | 0,2 |
| Digər gəlirlər | 4,9 | 7 | 13,9 | 11,3 | 10,3 | 9,7 | 11,5 | 8 | 4,9 | 3,7 | 10,9 |
| ölkə daxilində digər ailələrdən alınan vəsaitlər | 3,1 | 5,3 | 10,8 | 10,4 | 4,8 | 8,5 | 9,6 | 6,9 | 4,7 | 3,7 | 9,6 |
| ölkə xaricindən alınan vəsaitlər | 1,8 | 1,7 | 3,1 | 0,9 | 5,5 | 1,2 | 1,9 | 1,1 | 0,2 | 0 | 1,3 |

**Qrafik 2.** 2020-ci ildə iqtisadi rayonlar üzrə gəlirlərin mənbələrə görə bölgüsü, faizlə
**Mənbə:** [2], [3]

2020-ci ilin təhlili bizə bir sıra iqtisadi rayonlarda, əsasən, Naxçıvan MR, Abşeronda, Bakı şəhərində əhali gəlirlərinin əsas mənbəyi muzdlu iş, yəni əmək haqqı olduğu göstərilir ki, bu da həmin iqtisadi rayonlarda əhalinin əksər hissəsinin urbanizasiya səbəbindən muzdlu əməyə üstünlük verməsi ilə bağlıdır. Özünüməşğulluqdan, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalından gələn gəlirin ən yüksək göstəriciləri Dağlıq Şirvan, Lənkəran, Aran, Şəki-Zaqatala, Quba-Xaçmaz, Gəncə-Qazax və Naxçıvan MR iqtisadi rayonlarına təsadüf edir. Bu da həmin rayonlarda, kənd təsərrüfatı məhsullarının istehsalının, əl işi və sənətkarlığın inkişafı ilə əlaqədardır. Mülkiyyətdən gələn gəlir üzrə Bakı şəhəri liderdir. Bu da mülkiyyətdən gələn gəlirin mülkiyyətin paytaxtda olma səbəbindən ona daha yüksək tələbin və icarə haqqının baha olması ilə bağlıdır. Alınmış cari transfertlərlər üzrə Kəlbəcər-Laçın, Yuxarı Qarabağ iqtisadi rayonların öndə olması bu rayonlardan qaçqın və məcburi köçkünlərin olması, o cümlədən müavinət və sosial yardımların ən yuxarı göstəricilərinin bu rayonların payına düşməsi ilə əlaqəsi olduğu görünür. Ölkə xaricindən alınan vəsaitlərin daha çox Lənkəran və

Gəncə-Qazax iqtisadi rayonlarına düşməsi bu iqtisadi rayonların xarici-iqtisadi ticarətdə aktivliyi ilə izah edilir.

2013 və 2020-ci illərin müqayisəli təhlilindən görünür ki, 2013-cü ildə Naxçıvan MR-da 20,7%, Abşeronda 25,4%, Gəncə-Qazax iqtisadi rayonunda 16,1%, Şəki-Zaqatala iqtisadi rayonunda 14,9%, Lənkəran iqtisadi rayonunda 14,6%, Quba-Xaçmaz iqtisadi rayonunda 12,6%, Aran iqtisadi rayonunda 14,8%, Yuxarı Qarabağ iqtisadi rayonunda 21,8%, Dağlıq Şirvan iqtisadi rayonunda 13,8%, Kəlbəcər-Laçın iqtisadi rayonunda 15,5%, Bakı şəhərində isə 21,1% əhali dövlət sektorunda çalışmaqla gəlir əldə etmişdir. Eyni zamanda özəl sektorda çalışaraq gəlir əldə edənlər ən çox Naxçıvanda 18%, Bakı şəhərində 14,4% olmaqla, ən az Yuxarı Qarabağ və Aran iqtisadi rayonlarında (müvafiq olaraq 2,7% və 2,9%) təşkil etmişdir. Kənd təsərrüfatı ilə məşğul olanlar daha çox Naxçıvan MR-da (1,5%), sahibkarlıq, kommersiya fəaliyyəti ilə məşğul olanlar Gəncə-Qazax iqtisadi rayonunda (10,1%), öz təsərrüfatında çalışanlar Lənkəran iqtisadi rayonunda (33,9%), peşəsi üzrə sərbəst fəaliyyət göstərənlər Dağlıq Şirvan iqtisadi rayonunda (19%), xüsusi şəxsin yanında işləyənlər isə Abşeron iqtisadi rayonunda (6,5%) üstünlük təşkil etmişdir. İqtisadi rayonlar arasında sosial fond hesabına yaşayanlara daha çox Abşeron, Kəlbəcər-Laçın iqtisadi rayonlarında və Bakı şəhərində rast gəlinir. Göründüyü kimi, respublikamızın ayrı-ayrı iqtisadi rayonlarında əhalinin gəlir mənbələri də bir-birindən fərqlənir.

2013-cu ilə nisbətən 2020-ci ildə gəlir mənbələrində xüsusi çəkiyə görə dövlət sektorunda muzdla çalışanların xüsusi çəkisində artım Kəlbəcər-Laçın (9,9%), Naxçıvan MR (8%), Dağlıq Şirvan (6,9%),Gəncə-Qazax (3,1%), Şəki-Zaqatala (2,8%), Quba–Xaçmaz və Yuxarı Qarabağda (0,8%) olduğu halda özəl sektorda muzdlu işçilərin xüsusi çəkisində ən yüksək artım Abşeron (3,4%) iqtisadi rayonunda olub. Əgər birincilərdə yüksəlmə dövlət bölməsinin artımı ilə izah edilirsə, ikincidə özəl sektorda iş yerlərinin və işçilərin sayının artmasına işarədir. Təəssüf edici haldır ki, 7 il ərzində özünüməşğulluğun xüsusi çəkisində artım yalnız Yuxarı Qarabağda (1,6%) müşahidə edilmiş, digər iqtisadi rayonlarda mənfi tendensiya olmuşdur. İşsizliyə görə müavinətin xüsusi çəkisində artım Aran (0,7%), Bakı şəhəri (0,5%) və Gəncə-Qazaxda (0,4%) müşahidə edilir. Bu həmin iqtisadi rayonlarda işsizlərin sayının artmasını ifadə edir. Pensiya hesabına gəlirin xüsusi çəkisinin artması Dağlıq Şirvan və Bakı şəhərində (3,8%), Lənkəranda (1,9%), Quba-Xaçmazda (1,6%) və Aranda (1,1%) olmuşdur ki, bu da həmin iqtisadi rayonlarda əhalinin pensiya alanların sayının artmasını göstərir, yəni əhalinin qocalmasına işarədir. Əhalinin gəlir mənbələri arasında sosial müavinətlərin xüsusi çəkisinin artması ən çox Gəncə-Qazax (0,6%) və Şəki-Zaqatalada (0,5%), ən aşağı göstərici isə Yuxarı Qarabağda (6,2% azalma) olmuşdur. Ünvanlı sosial yardımın artımı isə Kəlbəcər-Laçında (0,5%) olmuşdur. Əhalinin gəlir mənbələri arasında xüsusi çəkisi artan maddə himayədir ki, bu da ən yüksək artım Quba-Xaçmaz (11,7%), Şəki-Zaqatalada (11,5%), Lənkəranda (8,9%), Abşeron və Yuxarı Qarabağda (8,4%), Kəlbəcər-Laçında (7,3%) olduğu halda, digər iqtisadi rayonlarda 1,2-4,9% arası dəyişmişdir. Əhalinin gəlir mənbələri

arasında təhsil təqaüdünün xüsusi çəkisinin artımı yalnız Abşeron (0,3%) iqtisadi rayonuna təsadüf edir ki, bu da təhsil müəssisəslərinin bu ərazidə yerləşməsinin üstünlüyü ilə bağlıdır.

**Cədvəl 2.** 2013-cü ilə nisbətən 2020-ci ildə iqtisadi rayonlar üzrə əhalinin gəlir mənbələrinin xüsusi çəkisinin artması (azalması), faizlə

| | Naxçıvan MR | Abşeron | Gəncə-Qazax | Şəki-Zaqatala | Lənkəran | Quba-xaçmaz | Aran | Yuxarı qarabağ | Dağlıq Şirvan | Kəlbəcər-Laçın | Bakı şəhəri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət sektorunda muzdlu iş | 8 | -2,9 | 3,1 | 2,8 | -1,3 | 0,8 | -0,2 | 0,8 | 6,9 | 9,9 | -0,7 |
| Özəl sektorda muzdlu iş | -1,8 | 3,4 | 0,9 | 1,6 | 0,2 | 1,4 | 0,2 | -0,2 | -1,4 | - | -2,7 |
| Özünüməşğulluq | -4,5 | -7,8 | -7,6 | -13,6 | -9,9 | -15,8 | -3,1 | 1,6 | -14,7 | -9,6 | -3,3 |
| Işsizlik üzrə müavinət | - | 0,2 | 0,4 | - | 0,2 | - | 0,7 | - | - | - | 0,5 |
| Pensiya | -2,4 | -1,3 | 0,1 | -1,8 | 1,9 | 1,6 | 1,1 | -3,5 | 3,8 | -5,3 | 3,8 |
| Təhsil təqaüdü | -0,8 | 0,3 | - | -1,1 | - | - | - | -0,7 | - | -0,2 | -0,2 |
| Sosial müavinətlər | - | -0,5 | 0,6 | 0,5 | 0,2 | 0,2 | 0,4 | -6,2 | - | -1,5 | 0,2 |
| Himayədə | 1,2 | 8,4 | 2,3 | 11,5 | 8,9 | 11,7 | 3,9 | 8,4 | 4,9 | 7,3 | 2,5 |
| Ölkə xaricindən göndərilən pul | 0,1 | - | -0,1 | 0,1 | - | 0,2 | 0,2 | 0,1 | 0,3 | -1,2 | -0,1 |
| Ünvanlı sosial yardım | - | - | - | - | - | - | -0,1 | - | - | 0,5 | -0,3 |
| Digər mənbələr | - | - | - | - | - | - | - | - | - | - | 0,3 |

**Mənbə:** Müəllif tərəfindən [4] (08.11.2014-cü il tarixə) və [2, s.183] məlumatları əsasında tərtib edilib

Müqayisə üçün 2020-ci ildə iqtisadi rayonlar üzrə əhalinin gəlirlərinin mənbələri ilə bağlı mövcud olan vəziyyəti cins tərkibi üzrə təhlilinə baxaq.









**Qrafik 3.** 2020-ci ildə iqtisadi rayonlar və Bakı şəhəri inzibati ərazi vahidi üzrə əhalinin gəlir mənbələri, faizlə. **Mənbə:** [2, s.183]

Əhalinin gəlir mənbələrinin iqtisadi rayonlar və cins tərkibinə diqqət yetirdikdə, 2020-ci ildə qadınların cəmdə xüsusi çəkisinin kişilərə nisbətən bütün iqtisadi rayonlarda daha yüksək olduğu görünür. Lakin ən yüksək xüsusi çəkinin Şəki-Zaqatala (53,7%), ən aşağı göstəricinin Yuxarı Qarabağda (50,9%) olduğunu görürük. Həmçinin, qadınların gəlirlərinin dövlət sektorundan özəl sektora nisbətən daha yüksək olduğu, pensiya və himayənin xüsusi çəkisinin daha artıq olduğu müşahidə edilir.

## 4. İstehlak xərclərinin tərkibi

Bəs gəlirin xərclənməsi necədir? Dövlət Statistika Komitəsinin ev təsərrüfatları ilə bağlı apardığı araşdırmaya görə, Azərbaycanda əhalinin cəmi 20 faizinin bütün xərclərdən sonra hansısa gəliri qalır [7]. Doğrudan da, ölkənin sosial-iqtisadi vəziyyətini kifayət qədər dəqiq səciyyələndirən varlı və kasıb arasındakı nisbətdir.

İlk növbədə Azərbaycan əhalisinin xərclərini təhlil etmək lazımdır. Məsələn, Qərbi Avropada ərzaq xərcləri xərclərin tərkibində orta hesabla 20%-dən çox deyil. Beynəlxalq araşdırmalarda yoxsullar ümumi xərclərinin 70%-ni qidaya xərcləyənlər hesab edilir. Azərbaycanda rəsmi məlumatlara görə, ərzaq, içki və tütünə xərclərin payı gəlirlərin 50,3%-ni təşkil edir. Qeyd edək ki, 1991-ci ildə əhalimiz gəlirlərinin 50%-ni; 1995-ci ildə 76,3%-i; 2020-ci ildə təqribən 41-45%-ni ərzağa xərcləyib.




**Qrafik 4.** 2020-ci ildə iqtisadi rayonlar üzrə istehlak xərclərinin tərkibi, faizlə **Mənbə:** [2, s.49]

Regional miqyasda bərabərsizlik yoxsulluğun, aclığın və qida çatışmazlığının aradan qaldırılması üçün maneələrdən biridir. Sərbəst bazar iqtisadiyyatının yaranması ölkənin son illərdə təsirli böyüməsinə töhfə versə də, bu artım əhatəli olmalıdır ki, müsbət nəticə versin. Artım, əsasən, kənd və şəhər yerləri arasında differensasiyanın genişlənməsi, iqtisadi sərvət və məşğulluğun, əsasən, paytaxt Bakıda cəmlənməsi regional fərqi artırır. Qeyri-neft işçiləri, aşağı səviyyəli dövlət məmurları (7 təsnifat üzrə), müəllimlər və həkimlər dövlət sektorunda çalışır və gəlir özəl sektora nisbətən aşağıdır və qeyd edək ki, xüsusilə kənd və ucqar rayon ərazilərində gəlirin əldə edilməsində qeyri-bərabərlik və həssaslıq yüksək olaraq qalır. Son vaxtlar minimum əmək haqqı və pensiyaların artırılmasına baxmayaraq, aşağı-orta gəlirli azərbaycanlılar ərzaq, təhsil, mənzil və səhiyyə xidmətlərinin yüksək qiymətlərini nəzərə alaraq, öz dolanışıqlarını saxlamaqda çətinlik çəkirlər. Bu da ucqar kənd yerlərində daha kəskin özünü göstərir.

Ərzaq və kənd təsərrüfatı sektoru, əsasən, özəl sektorun nəzarətindədir. Əsasən, bu sektorlarda qiymət artımının vətəndaşlara zərərli təsirlərini qorumaq üçün dövlət tənzimlənməsinə ehtiyac vardır. Lakin vətəndaşların əsassız qiymət artımından şikayət mexanizmi mükəmməl olmadığından vətəndaşların hüquqlarının pozulması halına rast gəlinir. Bu səbəbdən şikayət edə bilməsi üçün istehlakçıların effektiv müdafiəsi sistemi təkmilləşdirilməlidir. Qeyd edək ki, Azərbaycan əhalisi ərzaq təminatında heç bir çətinliklə üzləşmir və ölkə özünü demək olar ki, əsas ərzaq məhsulları ilə - kartof, ət, tərəvəz, bəzi meyvələr, məsələn, üzüm, xurma, alma və digər qidalarla təmin edir. Bəzi ərzaq məhsulları xaricdən gətirilir, lakin bu, qidanın mövcudluğu baxımından böyük problem yaratmır. Bununla belə, qida məhsullarının şaxələndirilməsi çətin məsələdir. Orta təbəqəli əhali çoxlu ət, toyuq, düyü və çörək yeyir; xüsusilə uşaqlar kifayət qədər meyvə və tərəvəz yemirlər. Əhalinin qidalanma təhsili zəifdir və valideynlər sağlam qidalanma vərdişlərini təbliğ etmirlər. Artıq çəki və piylənmə ilə bağlı narahatedici problemlər olmasa da, həddindən artıq yemək və qeyri-sağlam qida ilə bağlı problemlərin bəzi ilkin əlamətləri müşahidə edilir. Əhalinin sağlam və məqbul kalorili, vitaminli qida seçməkdə kömək etmək üçün Milli Qidalanma Təlimatlarına ehtiyac var. Bununla yanaşı, şəkərli içkilər və həddindən artıq miqdarda yağ, şəkər və duz olan qida istehsalçılarına nəzarət etmək üçün hüquqi və normativ baza təkmilləşdirilməli, sağlam olmayan qidaların reklamı qadağan edilməlidir [7].

2018-ci ildə 6-23 aylıq uşaqlar üçün ölçülən qida keyfiyyətinin göstəriciləri (yəni, minimum pəhriz müxtəlifliyi, minimum yemək tezliyi) bəzi uşaqların adekvat qidalanmadığını göstərir. Konkret olaraq, 6-23 aylıq uşaqların 50%-dən azı yeddi qida qrupundan dörd və ya daha az yemək yeyir. Bu, bəzən aztəminatlı ailələr arasında qeyri-kafi qidalanma ilə əlaqədardır. 2018-ci ildə yeni doğulanların 7,3%-i aşağı çəki ilə doğulub. Ümumdünya Səhiyyə Təşkilatının təsnifatına əsasən, Azərbaycanda 10%-dən az olan ölkədə zəif çəki ictimai sağlamlıq baxımından "aşağı" kimi təsnif edilir. Bununla belə, 2018-ci ildə 5 yaşa qədər uşaqların 14,1%-i artıq çəkidən, böyüklərin isə 19,9%-i piylənmədən əziyyət çəkirdi. Bu dünya

standartlarında bir çox digər ölkələrlə müqayisədə xeyli aşağı olsa da, sağlamlıq problemidir və gələcəkdə ciddi problemlərin qarşısını almaq üçün qabaqlayıcı tədbirlərə başlamaq vacibdir. Azərbaycanda 38,5% reproduktiv yaşda (15-49 yaş) olan qadınlar və yeni doğulmuş körpələri yüksək dərəcədə anemiyadan əziyyət çəkir. Bu, qeyri-kafi və qüsurlu qidalanmanın bir nəticəsidir.

## 5. Pandemiyanın təsiri

Karantinin Azərbaycan cəmiyyətinə ciddi iqtisadi təsir göstərməsi və işsizliyin artması ev təsərrüfatlarının gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. Ölkədə dövlətin yardım paketləri əsasında işsizlərə maliyyə yardımı (təxminən 600 min sakin ayda 190 manatdan gəlir əldə edə bilmiş) və müəssisələrə vergilərin azaldılması, yeni kredit subsidiyaları və maliyyə dəstəyi şəklində yardımı nəzərdə tutan sosial təminat proqramı tədbiq edilmişdir. Pandemiyadan zərər çəkmiş sektorlarda çalışan 300 min fiziki şəxs (mikro sahibkar) üçün təxminən 80 milyon manat (47 milyon ABŞ dolları) məbləğində vəsait ayrılıb.

2020-ci ilin iyun ayından etibarən Vergi Məcəlləsinə COVID-19-dan təsirlənən bizneslərə güzəştlər nəzərdə tutulan dəyişikliklər təsdiq edilmişdir [1]. Dəyişikliklər turizm, sərnişin avtomobil nəqliyyatı və mədəniyyət obyektləri də daxil olmaqla seçilmiş sektorlar üçün illik torpaq və əmlak vergisindən azad edilməsini nəzərdə tutur. Gəlir vergisi ödəyiciləri də 75% güzəşt əldə edirlər. Əlavə dəyər vergisi (ƏDV) ərzaq və sağlamlıq təhlükəsizliyi məhsulları və xidmətləri vergisindən azad edilib. Azərbaycanda orta gəlirli insanlar, əsasən, dövlət sektorunda işləyirlər və təcrid zamanı tam maaş almışlar. Azərbaycanda ən az maaş alan sahələr olan səhiyyə və təhsil sektorlarının işçilərinin təxminən 70%-ni qadınlar təşkil edir ki, bu da pandemiya zamanı onları daha çox risk altında qoymuş və onların iqtisadi və sosial ehtiyaclarına xüsusi diqqət tələb etmişdir. Təhlil göstərir ki, pandemiya dövründə qadınlara təsir edərək iqtisadi baxımdan həm iş yerlərinə görə, həm də gəlirlərə görə ağır zərbə vurub. Bütün sosial və yaş qruplarından olan qadınlar işlərinin itirilməsindən, gəlirlərinin itirilməsindən və maaşların azaldılmasından əziyyət çəkmişlər. Ev işləri və uşaq baxımı kimi ödənişsiz işlərdə çalışan qadınların 15%-i işini itirdiklərini, digər 41%-i isə ödənişli iş saatlarının azaldılması ilə üzləşdiyini bildirib [6]. Buna baxmayaraq, məlumatlar göstərir ki, özünüməşğulluqdan gəlir əldə edən qadınların bütün kateqoriyalarından olan qadınların təxminən 70%-i ödənişli iş saatlarında azalma və ya iş itkisi ilə üzləşib.

Ümumdünya Səhiyyə Təşkilatının Strateji Hazırlıq və Cavab Proqramı çərçivəsində Azərbaycan hökuməti COVID-19 fonduna 5 milyon ABŞ dolları ayırıb. Azərbaycan, Türkiyə və Çindən də tibbi personal və ləvazimat şəklində tibbi yardım alıb. Ümumilikdə pandemiya dövründə 500 minə yaxın vətəndaş işsizliyə görə dövlət dəstəyi alıb. Lakin dövlətin sosial dəstək tədbirləri ölkə əhalisinin bir sıra təbəqəsini, əsasən də kölgə iqtisadiyyatında çalışanları nəzərə almayıb. Qeyd edək ki, 2018-ci ildə kölgə iqtisadiyyatının azaldılması məqsədi ilə əmək müqavilələrinin bağlanması istiqamətində aparılan addımlar müsbət nəticə vermişdir. Belə ki, 2018-ci illə müqayisədə 2020-ci ildə bağlanan əmək müqavilələrinin sayında 30% (393 000

ədəd) artım olmuşdur. Lakin bu hələ tam nəticə deyil, kölgə iqtisadiyyatında çalışanlar hələ də mövcuddur.

Pandemiya müxtəlif əhali qruplarına fərqli şəkildə təsir göstərmişdir. Bunlara, əsasən, gənc işçilər (işsizliyə daha çox məruz qalanlar), turizm və digər ictimai iaşə sahələrdə çalışmış, əsasən, qadın işçiləri daxildir. Pandemiya dövründə iş axtaran bəzi şəxslərə evli olduqları, adına rəsmiləşdirilmiş avtomobili və mülkləri olduğu əsas gətirilərək iqtisadi dəstək almaqdan imtina edilib. Nəticədə, bu qrupların bir çoxu gündəlik gəlirlərindən məhrum olaraq daha pis bir vəziyyətə düşmüşdür. Bu səbəbdən Azərbaycan üçün onu təklif edərdik ki, iqtisadiyyatın müxtəlif sektorlarında, ölkə regionlarında əhalinin gəlirləri və əmək haqqı sahəsində differensasiyanın təhlili nəzərə alınmaqla unifikasiya üçün tədbirlər görülsün. Çünki təhlildən gördüyümüz kimi Azərbaycan əhalisi gəlir və xərclərdə artan bərabərsizliklə üzləşmişdir və bunun idarə edilməsi üçün daha çevik mexanizmlərə ehtiyac vardır.

**Nəticə.** Ümumilikdə, respublikamızda əhali gəlirlərinin səviyyəsi şəhərlərdə kəndlərə nisbətən daha yüksəkdir. Bunun əsas səbəbi kimi şəhər yerlərində əhalinin sayının çox olmasını, muzdlu işlə bağlı gəlirlərin əldə edilməsinin daha asan, mülkiyyətdən gələn gəlirlərin daha yüksək olmasını göstərmək olar.

Son illərin təhlili bizə bir sıra iqtisadi rayonlarda, əsasən, Naxçıvan MR, Abşeron, Bakı şəhərində əhali gəlirlərinin əsas mənbəyinin muzdlu iş, yəni əmək haqqı olduğunu göstərir. Bu da həmin iqtisadi rayonlarda əhalinin əksər hissəsinin urbanizasiya səbəbindən muzdlu əməyə üstünlük verməsi ilə bağlıdır. Özünüməşğulluqdan, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirin ən yüksək göstəriciləri Dağlıq Şirvan, Lənkəran, Aran, Şəki-Zaqatala, Quba-Xaçmaz, Gəncə Qazax və Naxçıvan MR iqtisadi rayonlarına təsadüf edir. Bu da həmin rayonlarda, kənd təsərrüfatı məhsullarının istehsalının, əl işi və sənətkarlığın inkişafı ilə əlaqədardır. Mülkiyyətdən gələn gəlir üzrə Bakı şəhəri liderdir. Bu da mülkiyyətdən gələn gəlirin mülkiyyətin paytaxtda olma səbəbindən ona daha yüksək tələbin və icarə haqqının baha olması ilə bağlıdır. Ölkə xaricindən alınan vəsaitlərin daha çox Lənkəran və Gəncə-Qazax iqtisadi rayonlarına düşməsi bu iqtisadi rayonların xarici-iqtisadi ticarətdə aktivliyi ilə izah edilir.

Ümumilikdə pandemiya dövründə yarım milyona yaxın vətəndaş işsizliyə görə dövlət dəstəyi alsa da, kölgə iqtisadiyyatında çalışanlar gəlir baxımından böyük itkiylə üzləşiblər. Eyni zamanda, bu müddət ərzində pensiya, müavinət və sosial yardımlarda xüsusi ilə artım müşahidə edilsə də, bəzi sahələrdə, məsələn kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlə özünüməşğulluqdan əldə edilən gəlirlərin səviyyəsində 2019-cu ilə nisbətən 2020-ci ildə azalma müşahidə olunmuşdur. Daha çox gənclər, turizm və digər ictimai iaşə sahələrdə çalışan əsasən qadın işçiləri zərər görmüşdür. Pandemiya dövründə bəzi işsiz şəxslərə müəyyən səbəblər əsas gətirilərək iqtisadi dəstək almaqdan imtina edilmiş, nəticədə isə onların bir çoxu gündəlik gəlirlərindən məhrum olaraq daha acınacaqlı vəziyyətə düşmüşdür.

Ancaq 44 günlük müharibə nəticəsində işğaldan azad olunmuş ərazilərimizin yenidən bərpası nəticəsində oradakı həyat bərpa olunmaqdadır. Yeni iş yerlərinin açılması, infrastruktur sahələrinin inkişaf etməsi əhalinin gəlir əldə etməsinə və yaşayış səviyyəsinin qalxmasına olduqca müsbət təsir göstərəcəkdir.

**Ədəbiyyat**

1. Azərbaycanın “İnklüziv İnkişaf İndeksi 2018” hesabatında irəliləməsi uğurlu islahatların nəticəsidir. https://azertag.az/xeber/Azerbaycanin_Inkluziv_Inkisaf_Indeksi_2018_hesabatinda_irelilemesi_ugurlu_islahatlarin_neticesidir-1130930
2. Ev təsərrüfatları tədqiqatının əsas yekunları (2021), Rəsmi nəşr. Statistik məcmuə, Bakı.
3. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
4. https://www.stat.gov.az/source/system_nat_accounts/
5. Regionların sosial-iqtisadi inkişafı (2019-2023), Statistik məcmuə/2021 – yanvar.
6. The Socioeconomic Impact of COVID-19 and Oil Price Fluctuations in Azerbaijan https://ge.boell.org/en/2020/09/15/socioeconomic-impact-covid-19-and-oil-price-fluctuations-azerbaijan#_ftn13
7. Заявление г-жи Элвер, Х (1-11 октября 2019), Специального докладчика Организации Объединенных Наций по вопросу о праве на питание, во время ее визита в Азербайджанскую Республику. https://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=25122&LangID=E#_ftn7